# Azərbaycan pianoçuları

## ifaçılıq sənətində təfsir məsələsinə dair mülahizələr

**Bütün milli mədəniyyətlər bir-biri ilə təmasda olaraq öz dialektik potensialını yeniləşdirirlər.**

Bu proses onun özünəməxsusluğunu itirməsi, yaxud əskilməsini təsdiq, həmçinin "Rus ifaçılıq məktəbi", "Azərbaycan fortepiano məktəbi" anlayışlarını inkar etmir, əksinə, hər bir milli mədəniyyətin gələcək tərəqqisinin enerji mənbəyidir.

Azərbaycan fortepiano məktəbini dünya ifaçılıq sənətində tarixən təşəkkül tapmış və estetik prinsiplərinə görə vahid istiqaməti baxımından təhlil edərək, onun görkəmli nümayəndələrinin fəaliyyətində fərdi pedaqoji və ifaçılıq xüsusiyyətlərinin müxtəlifliyi və çoxşaxəliliyini qeyd etmək lazımdır. Belə ki, onlar milli pianoçuların gələcək nəsillərinin püxtələşməsində müstəsna rol oynamışlar.

Bu məktəbin görkəmli nümayəndələri, istedadlı pianoçular fərdi-yaradıcı özünəməxsusluqları ilə yanaşı, sənətə həqiqi yaradıcı yanaşma, yüksək peşəkarlıq, dinləyicini öz ifaçılıq ustalığı ilə heyrətləndirmək bacarığı ilə seçilmişdirlər.

Azərbaycan pedaqoq və pianoçularının ifaçılıq və pedaqoji fəaliyyətini nəzərdən keçirərək belə qənaətə gəlmək olar ki, onlar rus fortepiano məktəbinin ənənələrinə arxalanıb, klassik fortepiano ifaçılığı mədəniyyətinin nailiyyətlərini mənimsəmiş, həmçinin bu ənənələri öz milli-xalq musiqi mədəniyyətinin potensialı ilə əlaqələndirərək, hər biri bu sintezi ifaçılıq sənətində öz yaradıcı fərdiyyətinə uyğun həyata keçirmişdir.

Müasir dövrdə çağdaş Azərbaycan pianoçularının pedaqoji və ifaçılıq təcrübəsi, milli fortepiano məktəbinin təşəkkülündə müstəsna xidmətləri olmuş istedadlı müəllimlərinin tədris ənənələrinə qayğı ilə yanaşdıqlarını təsdiq edir.



**Hər bir milli ifaçılıq məktəbi nadir və unikaldır. O, bədii və estetik zövqün, mizac və temperamentin, mənəvi potensialın özünəməxsus xüsusiyyətlərinə malik olaraq əsrlər boyu davam edən digər mədəniyyətlərlə qarşılıqlı əlaqə əsasında təşəkkül tapır.**

Musiqiçilərin hər gələn yeni nəsli bu məktəbə səciyyəvi olan metodik prinsip və göstərişləri qəbul edərək yaradıcı baxımdan yeniləşdirir.

Milli fortepiano ifaçılığı məktəbinin görümlü ənənələrini rəhbər tutaraq, onları eyni zamanda doğmaya çevirmir, ideallaşdırmır, təqlidini çıxarmır, əksinə, müasir ifaçılıq təcrübəsi və nəzəriyyəsinə öz şəxsi töhfələrini bəxş etməkdən çəkinməyərək, sələflərindən əxz etdikləri ifaçılıq prinsiplərini inkişaf etdirir, təkmilləşdirirlər.

"Unutmamaq vacibdir ki, incəsənətdə ənənə ümumi deyil, daha çox vahid - sənətkarın ifadəlilik sferasına yol açan unikal nailiyyətlərin ötürülməsinin xüsusi formasıdır. Burada elmdən fərqli olaraq hər bir məqamı qeyd etmək qeyri- mümkündür. Buna heç ehtiyac da yoxdur. Belə ki, fərdi intonasiyanın, intuisiyanın, fantaziyanın qorunub saxlanması sənətkardan sənətkara uzanan canlı bağdır" (3).

Hər bir görkəmli pianoçu-pedaqoqun təcrübi işində onun yaradıcı fərdiyyətindən asılı olaraq ümumi prinsiplər müəyyən dərəcədə özünəməxsusluq əldə edir.

Bura onun alətin səslənməsinə, pedallamaya, frazirovkaya, lazımi səslənmənin əldə olunma üsullarına və ifaçılıq sənətinin digər problemlərinə münasibəti aid edilir.

Pedaqoqun hər bir halda hansı tələbə ilə məşğul olduğundan bir çox məqamlar asılıdır. Tələbənin qabiliyyəti, musiqi və ifaçılıq istedadının zəif və güclü tərəfləri şübhəsiz ki, nəzərə alınmalıdır. Lakin ifaçılıq sənətkarlığının inkişaf probleminə yanaşma mövqeyində, həmçinin musiqi əsəri üzərində iş metodları sahəsində müasir Azərbaycan pianoçu-pedaqoqlarının bir çox ümumi cəhətləri vardır.

Onlar fortepiano ifaçılığı və pedaqogikasının artıq mövcud ənənələrinin yaradıcı mövqedən əks etdirilməsinə əsaslanırlar.

Milli fortepiano ifaçılığının inkişaf tarixinə görkəmli Azərbaycan pianoçu və pedaqoqları əhəmiyyətli töhfələrini vermişdirlər. XX əsr görkəmli Azərbaycan pedaqoq-pianoçularının ifaçılıq və pedaqoji fəaliyyətinin təhlili bu qənaətə gəlməyə imkan verir ki, onların hər biri individual məktəblərini yaradaraq, bu istiqamətdə böyük müvəffəqiyyət qazanmağa nail olmuşlar.

"60-cı illərin əvvəllərində Azərbaycan musiqi mədəniyyətinin həm bəstəkarlıq, həm də ifaçılıq istiqamətləri təkmilləşərək möhkəmləndi. Qüvvə toplamaq dövrü geridə qaldı - mühüm yaradıcı nailiyyətlər zamanı yetişdi. Musiqi sənətinin təzahürlərinin miqyası dəyişdi - artıq milli, bədii nailiyyətlər daha sürəkli ümumittifaq rezonans doğurur, Azərbaycan mədəniyyətinin uğurları beynəlxalq səviyyədə tanınırdı.

Azərbaycan bəstəkarlarının əsərləri xarici dövlətlərdə müvəffəqiyyətlə səslənir, respublikanın ifaçılıq sənətinin təmsilçiləri müxtəlif ölkələrə qastrol səfərlərinə çıxırdılar" (1).

Buna ən əvvəl istedadlı müəllim və müasirlərinin özülünü qoyduqları başlıca prinsiplər, həmçinin rus fortepiano məktəbinin ən gözəl ənənələrinə dayaqlanmaları imkan yaratmışdır.

Onların musiqi əsərinin təfsiri məsələsində metodoloji prinsipləri bir çox cəhətdən oxşar idi ki, bu da musiqi tədrisinin nəzəriyyə və təcrübəsinin vahid sistemi olan yeganə milli fortepiano pedaqogikasının formalaşması haqqında fikir yürütməyə yol verir.

Bu sistem keçmişin ən aparıcı pedaqoji ənənələrinin ümumiləşdirilməsi və eyni zamanda onların inkişafının yeni mərhələsi oldu. Onların hamısı musiqiçi şəxsiyyətinin "hiss-həyəcan aparatı", "dərketmə aparatı", "təcəssüm aparatı"nın vəhdət və qarşılıqlı əlaqəsi şəraitində bütöv, hərtərəfli tərbiyəsinin tərəfdarları olsalar da, iş prosesinin təcrübi metodları, estetik zövqləri və idealları baxımından kifayət qədər fərdi, fərqli idilər.

XX əsrin ortalarında Azərbaycanın fortepiano pedaqogikasının yeniliyi müasir musiqi təhsilinin ümumi xarakteri ilə şərtlənərək ilk növbədə tələbədə şəxsiyyət və dünyagörüşün tərbiyəsi probleminə diqqətin gücləndirilməsindən ibarət idi. Müasir pedaqoji elmin mövqeyindən XX əsrin görkəmli pedaqoq-pianoçularının fəaliyyətini təhlil edib təsdiqləmək olar ki, o əsas etibarilə inkişafda olan tədrisin ən mütərəqqi metodlarına əsaslanmışdır.

Bir çox tədqiqatçılar hesab edirlər ki, onların pedaqoji fəaliyyətində müasir musiqi pedaqogikasının aktual istiqamətlərinə nəzəri cəhətdən müvafiq olan bir çox prinsip və metodlar öz təcrübi realizasiyasını tapmışdır.

Beləliklə, Azərbaycan fortepiano məktəbinin görkəmli nümayəndələrinin pedaqoji və ifaçılıq təcrübəsini ümumiləşdirərək qeyd etmək vacibdir ki, o əsas etibarilə dünya musiqi ifaçılığı mədəniyyətinin ən aparıcı ənənələrinə əsaslanır.

Cəsarətlə demək olar ki, öz musiqi-pedaqoji təcrübələrində onlar müxtəlif müəllif məktəblərinin bir sıra nailiyyətlərini üzvi surətdə sintez etməyə müvəffəq olmuşdurlar.

Bu pedaqoq-pianoçulardan hər biri parlaq yaradıcı-musiqi fərdiliyinə sahib olaraq peşəkar Azərbaycan musiqi məktəbinin yaranmasına öz töhfələrini vermişdirlər.

Onların hərtərəfli yaradıcı-musiqi fəaliyyəti (pedaqoji, ifaçı, maarifçi) milli musiqi mədəniyyətinin çiçəklənməsinə doğru tədrici hərəkata bilavasitə səbəb olmuş və müəyyən etmişdir.

Azərbaycan pianoçularının musiqi əsərinin təf-

sirinə dair təcrübələrinin araşdırılıb təhlil edilməsi nəticəsində aşağıdakı qənaətlərə gəlinmişdir:

- ifaçılıq sənətinin bədii məzmun səmtinin dərk ediməsinin vacibliyi və zəruriliyi;
- bədii yanaşma və texnikanın vəhdətinin məqsədyönlü qavranılması və bu halda birinci komponentin üstünlüyü;
- musiqi ifaçılığının dərin, bədii, yaradıcı proses kimi dərk edilməsi;
- müəllimin öz yetirməsinə psixoloji, bədii-emosional təsirinin mühümlüyü;
- fortepiano tədrisinin bir tərəfdən hər hansı konkret, müəyyən sistemə sığmayan, digər tərəfdən isə bədii tərbiyə və yaradıcı dərketmə psixologiyasının qanunauyğunluqları əsasında ardıcıl və mütəşəkkil proses kimi qavranılması;
- musiqi əsərinin interpretasiyasında fərdi yanaşma prinsipi və ona nail olunmasında daha rasional yolların yaradıcı axtarışlarının zəruriliyi.

Musiqiçi-ifaçının iş prosesi metronomun bir tərəfdən digərinə, yəni emosionallıqdan rasionallığa və əks istiqamətdə müntəzəm hərəkətini xatırladır. Bu assosiativ müqayisə onunla əlaqəlidir ki, görkəmli sənətkarlar musiqinin interpretasiya prosesinin hiss və idrakın, həyəcan və anlayışın, təxəyyül və fəhmin, madii və mənəvi dünyanın ayrılmaz birliyindən yaranması fikrində həmrəydirlər.

Yalnız bu iki "maddi-mənəvi" məfhumların harmonik birliyi həqiqi sənət nümunəsinin yaranmasına səbəb ola bilər. Metronomun müntəzəm hərəkəti isə musiqiçilərə daim əhəmiyyətli və əbədi olan həqiqəti xatırladır. Belə ki, sənətə həqiqətən mübtəla olan kəs başqalarında da sənət qavrayışını inkişaf etdirmək ixtiyarındadır.

**Milli fortepiano ifaçılığı məktəbinin ənənə və nailiyyətlərinin gələcəkdə inkişaf etdirilməsi üçün bu gün mədəni mühitin qorunub saxlanması vacibdir.**

**Çox güman ki, məhz indi bizim yaradıcı, istedadlı gənclərimizin peşəkarlığa, yüksək ifaçılıq mədəniyyətinin əldə edilməsinə doğru daha səylə addımlamaqlarının vaxtı yetişmişdir. Belə ki, dahilik - fasiləsiz çalışmaq bacarığıdır.**

**Aynur XƏLİLOVA,**
*Üzeyir Hacıbəyov adına*
*Bakı Musiqi Akademiyasının müəllimi*

## Ədəbiyyat

1. Видные деятели фортепианной культуры Азербайджана. Сост. Т.М. Сеидов, Баку: Ишыг, 1988.
2. Вопросы фортепианного исполнительства. Очерки, статьи. Вып.3. Сост. И общ. ред. М.Г. Соколова, М. Музыка, 1973.
3. Григорьев В.Ю. Исполнительское искусство: состояние, некоторые перспективы. Музыкальное искусство и современность. Вып.
4. Научные труды Московской государственной консерватории, Сб. 19, Сост. В.Ю. Григорьев, М. 1997.

**Резюме**

Статья Айнур Халиловой "К вопросу трактовки музыкальных произведений в искусстве азербайджанских пианистов" посвящена анализу исполнительской и педагогической деятельности отечественных пианистов. Автор рассматривает процесс достижения единства технического и художественного компонентов как основополагающий принцип исполнительского искусства.

**Summary**

A. Khalilova's article "About interpretation of music composition in piano performing art of Azerbaijan pianists" is dedicated to the analysis of pedagogical experience and piano performing art of Azerbaijan pianists. Author considers the process of unity achievement of art and technical components as the main principle of performing skill.